**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI ELMİ – TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**YUSİFOVA ŞÖVKƏT ABUZƏR qızı**

# AQRAR SAHƏDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA MALİYYƏ-KREDİT MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**5312.01 –Sahə iqtisadiyyatı**
**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R AT I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Salahov Sadıq Vəli oğlu**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Xəlilov Həmzə Ağakişi oğlu**
iqtisad üzrə fəlsəfə doktoru
**Soltanlı İlkin Qalib oğlu**

**Aparıcı təşkilat:** AMEA-nın İqtisadiyyat İnstitutu
"İslahatlar və ərzaq təhlükəsizliyi" şöbəsi

Müdafiə «_25_».__May__. 2017-ci ildə saat 14:00 -da Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi - Tədqiqat İnstitutunda iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı şəhəri, N.Nərimanov rayonu, Az.29, 8-ci köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi - Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ___________ 2017-ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru:** **V.R.Rzayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Aqrar islahatların həyata keçirilməsi ilk növbədə ölkə iqtisadiyyatının yeni iqtisadi münasibətlər şəraitində təkamül yolu ilə yaranan bazar iqtisadiyyatı sistemi ilə inkişaf etdirilməsinə yönəldilmişdir. Məhz bu baxımdan, dövlət öz inhisarçı mövqeyindən əl çəkmiş, mülkiyyətində olan istehsal vasitələrinin müəyyən bir hissəsinin özəlləşdirilməklə, bu sahədə daha səmərəli istifadə etməkdə maraqlı olan fərdlərə verməsinə və bununla da ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaratmışdır. İqtisadiyyatın digər sahələri ilə müqayisədə özəlləşdirmə aqrar bölmədə daha sürətlə həyata keçirilməklə kənd təsərrüfatında ümumi məhsulda özəl qurumların həlledici paya yiyələnməsini şərtləndirmişdir. Son illər dövlət tərəfindən kənd təsərrüfatında sahibkarlığın inkişafı ilə bağlı davamlı olaraq silsilə tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2002-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və s. qəbul edilmişdir. Bundan əlavə "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" ölkə prezidentinin 23 yanvar 2007-ci il tarixli Sərəncamına əsasən aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq qurumlarına subsidiyaların verilməsi həyata keçirilir.

Azərbaycan Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair strateji yol xəritəsində təsdiq edilmişdir ki, kənd təsərrüfatında kiçik və orta sahibkarlığın səmərəli inkişafı ilə bağlı problemlər sonadək həll edilməmişdir. Belə ki, özəl bölmənin mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaq sahələrindən, bütövlükdə istehsal

potensialından səmərəli istifadə edilməsi, sahibkarlıq qurumlarının kapital resurslarına olan ehtiyaclarının ödənilməsi, kənd təsərrüfatında səmərəli geniş təkrar istehsalın qurulması, kənd əhalisinin məşğulluq səviyyəsinin və istehlak tələbatının maksimum ödənilməsi kimi vacib məsələlərin uğurlu həlli təmin edilməmişdir. Əvvəllər olduğu kimi, hal-hazırda da kənd təsərrüfatı bu sahədə istehsal resurslarından səmərəli istifadə və istehsalın iqtisadi səmərəlilik baxımından digər istehsal sahələrindən xeyli geri qalır. Kənddə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların böyük əksəriyyəti təsərrüfat fəaliyyətini gəlirlə başa vursalar da, əldə olunmuş maliyyə nəticələri kəndli ailələrinin tələbatının ödənilməsini təmin etmir. Aqrar islahatlarla əlaqədar kəndli ailələri müəyyən qədər iqtisadi resurslara, təsərrüfat müstəqilliyinə malik olsalar da, sözün tam mənasında, iqtisadi müstəqilliyi reallaşdıra bilməmişlər. Sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlir bir çox hallarda həm istehsal xərclərini, həm də ailənin istehlak tələbatı və istehsal fəaliyyəti dairəsini genişləndirmək üçün kifayət etmir.

Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin dinamik inkişafı iqtisadi mexanizmin ən mühüm elementlərindən olan maliyyə-kredit vasitələrinin yeni istehsal münasibətlərinin xarakterinə uyğunlaşdırılmasından bilavasitə asılıdır. Hazırda kənd təsərrüfatında sahibkarlığın genişləndirilməsi ilə bağlı zəruri tədbirlər həyata keçirilsə də, maliyyə-kredit infrastrukturları yetərincə inkişaf etdirilməmişdir. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatında kapital resurslarına olan ehtiyaclar tam ödənilmir, aqrar sahədə ixtisaslaşmış bank strukturları fəaliyyət göstərmir. Bütün bunlar isə sahibkarlığın inkişafının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi ilə bağlıdır. Bu istiqamətdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair strateji yol xəritəsinin maliyyə bölməsində nəzərdə tutulan prioritet vəzifələrin həllinə yönəldilən sistemli tədbirləri müəyyən edib reallaşdırılması tələb olunur. Beləliklə, yuxarıda qeyd edilənlər "Aqrar sahədə kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda elmi tədqiqatın aparılmasını obyektiv zərurətə çevirir.

**Problemin öyrənilməsi vəziyyəti.** Sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlər iqtisadçı alimlərin həmişə diqqət mərkəzində olmuşdur. Bunlardan A.Smit, Destyüt de Trasi, Y.Dcevons, A.Marşall, K.Meqner, F.Fon Vizer, E.Fon Byom-Bayer, L.Valras, R.Kouz, A.Xazkinéq, E.Kasl, M.Bekker, A.Nilson, Kempbell R.Makkonnell, L Stenl.Bryu və başqalarını göstərmək olar. Sahibkarlıq mövzusu postsovet məkanına daxil olan dövlətlərin, o cümlədən, Azərbaycanın iqtisadçı alimləri üçün tamamilə yeni tədqiqat obyektidir. Son 15 ildə Azərbaycan Respublikasının iqtisadçı alimləri Z.Ə. Səmədzadə, A.K.Ələsgərov, S.V.Salahov, E.A.Quliyev, B.X.Ataşov, F.Ə.Məmmədov, H.A.Xəlilov, İ.Ş.Qarayev, İ.H.İbrahimov, İ.H.Alıyev, N.Ə.Cavadov, R.M.Cəbiyev, R.K.İsgəndərov, V. H. Abbasov, R.N.Hüseynəliyev, E.Ə.Quliyev, R.Z.Hüseyn, xarici iqtisadçı alimlərindən L.İ.Abalkin, A.A.Nikonov, V.A.Tixonov, A.N.Barisenko, S.İ.Qryadov, V.A.Udalov, V.F.Başmaçnikov, A.P.Vasilenko, V.M.Vlasova, D.L.Volkov, S.N.Kulakov, A.V.Romanov, S.A.Starov və başqaları sahibkarlıq mühitinin formalaşması, sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formaları, iqtisadi mexanizmi, iqtisadi səmərəliliyi və inkişaf yolları haqqında çoxlu araşdırmalar aparmış, əsərlər yazmış, monoqrafiyalar, məqalələr dərc etdirmişdirlər. Lakin qeyd etmək lazımdır ki, adı çəkilən alimlərin əsərlərində kənd təsərrüfatında sahibkarlığın inkişafının, aqrar sahədə kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ayrıca tədqiqat obyekti kimi az öyrənilmiş, bir sıra nəzəri və metodoloji məsələlər elmi cəhətdən lazımınca tədqiq olunmamış qalır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi aqrar sahədə, o cümlədən kənd təsərrüfatında kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafında maliyyə-kredit mexanizminin rolu və onun nəzəri əsaslarını araşdırmaqdan, maliyyə-kredit mexanizminin inkişaf təmayüllərini müəyyənləşdirməkdən, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan

ibarətdir. Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- sahibkarlıq fəaliyyətinin mahiyyətini, aqrar sahədə kiçik və orta sahibkarlığın spesifik xüsusiyyətləri və formalarını araşdırmaq;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlığın maliyyə-kredit mexanizminin mahiyyəti, funksiyaları, formalaşdırılmasının elmi-nəzəri əsaslarını tədqiq etmək;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminə təsir edən amilləri araşdırmaq;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlığın maliyyə-kredit mexanizminin mövcud durumunu təhlil etmək;
- sahibkarlığın inkişafına dövlət maliyyə yardımının rolu və istiqamətlərini araşdırmaq;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlıq fəaliyyətinin səmərəli maliyyələşdirilməsi istiqamətlərini müəyyən etmək;
- kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq.

**Tədqiqatın obyekti** kimi respublikanın aqrar sahədə, o cümlədən kənd təsərrüfatında fəaliyyət göstərən müxtəlif sahibkarlıq qurumları seçilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları, Azərbaycan Respublikasının Sahibkarlıq fəaliyyətinin inkişafına dair qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin Fərmanları və Milli Məclisin qəbul etdiyi qanunlar, respublikanın və xarici ölkələrin iqtisadçı alimlərinin, elmi-tədqiqat institutlarının elmi araşdırmalarının nəticələri təşkil edir. Tədqiqat zamanı müqayisəli təhlil, məntiqi-sistemli yanaşma, struktur təhlil və digər metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası** Tədqiqat prosesində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat

İnstitutunun hesabatlarından, eləcə də mövzuya dair elmi-tədqiqat işlərinin materiallarından, internet resurslarından və s. istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- kiçik və orta sahibkarların maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri əsaslandırılmışdır;
- kəndli sahibkarların səmərəli maliyyə-təsərrüfat fəaliyyətini şərtləndirən amillər sistem halında araşdırılaraq əsaslandırılmışdır;
- kənd təsərrüfatında fəaliyyət göstərən kiçik və orta sahibkarlıq qurumlarının maliyyə sağlamlaşdırılması istiqamətləri müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatında kiçik və orta sahibkarlıq qurumlarının maliyyə resurslarına olan ehtiyaclarının ödənilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsinin kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
- aqrar sahədə kiçik və orta sahibkarlar ilə digər bazar subyektləri arasında bazar qanunlarına müvafiq qarşılıqlı işgüzar münasibətlərin yaradılmasının səmərəli vasitə kimi ikitərəfli müqavilələrin tətbiqinin zəruriliyi əsaslandırılmışdır;
- kəndli sahibkarlar tərəfindən təsərrüfat fəaliyyətinin planlaşdırılması, bütün mərhələlərdə xərclərin uçotunun aparılması, gəlirlər və xərclərin mütəmadi təhlil edilməsi zərurəti əsaslandırılmış və sahibkarlıq üçün sadə uçot formalarının tətbiqinə dair təkliflər hazırlanmışdır;

**Tədqiqatın təcrübi əhəmiyyəti aşağıdakılardın ibarətdir:**

Dissertasiya işində müəllif tərəfindən hazırlanmış təkliflər maliyyə və kredit mexanizmlərinin təkmilləşdirilməsi əsasında aqrar sahədə kiçik və orta sahibkarlıq subyektlərinin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələlərinin həllinə dair imkan və şərait yaradır.

Tədqiqat prosesində əldə edilmiş nəticələr, irəli sürülmüş müddəalar müvafiq dövlət proqramlarının hazırlanması, habelə aqrar istehsalçılara maliyyə xidmətlərinin inkişafı ilə bağlı strateji yönümlü sənədlərin, layihələrin hazırlanması zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və nəşri:** Dissertasiya işinin əsas müddəaları və nəticələri Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda keçirilən elmi-praktik konfransda və seminarda məruzə edilmiş və bəyənilmişdir. Dissertasiya işinin əsas nəticələri altı elmi məqalədə öz əksini tapmışdır və Gəncə Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzində tədqiqat işində istifadə üçün qəbul edilmişdir. (arayış №49, 15.03.2017)

**Dissertasiya işinin həcmi və quruluşu:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş 141 ədəbiyyat siyahısı olmaqla, 162 səhifəni əhatə edir. Dissertasiya işində 14 cədvəl, 2 diaqram verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin** "Aqrar sahədə kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminin rolu və onun nəzəri əsasları" adlanan birinci fəslində kiçik və orta sahibkarlıq fəaliyyətinin mahiyyəti, xarakterik xüsusiyyətləri, subyektləri və formaları, aqrar sahədə sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizmi, onun funksiyaları və formalaşdırılmasının elmi-nəzəri əsasları, habelə kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminə təsir edən amillər" tədqiq olunur.

Müasir dövrün iqtisadi sisteminə keçmiş, bazar münasibətlərini inkişaf etdirən və dərinləşdirən ölkələrin həyatı təcrübələri də göstərir ki, zəngin məzmuna və müxtəlif formalara malik olan sahibkarlıq fəaliyyəti hər bir təsərrüfat subyektinin tərəqqisinin əsas şərti və hərəkətverici qüvvəsidir. Belə münasibətlərin subyekti olan sahibkar isə cəmiyyətin təşəbbüskar, çevik, riskli və iqtisadiyyata daim yenilik gətirən sosial təbəqəsidir. Sahibkarlar bu günlə gələcəyin əlaqələndiriciləri olmaqla elmi və texniki yeniliklərdən məharətlə istifadə edərək istehsal texnologiyalarının müasirləşdirilməsi, istehsalın təşkili və idarə edilməsi imkan və

istedadlarını dönə-dönə sınaqdan keçirərək mənimsəyir və gələcək nəslin bu sahədə biliklərinin və həyati təcrübələrini genişləndirə bilməsinə imkan yaradır. Elə buna görə də sahibkarlar xüsusi istedada malik, müdrik və müstəsna qabiliyyətli insanlardır. Eyni zamanda, sahibkarlar əsas etibarilə lazımi vasitələri axtarıb tapan, əlverişli imkanı görən və onu yeni fikir, üsul və texnologiya işlətməklə əldən buraxmayan şəxslərdir. Geniş mənada sahibkarlıq yeni biznes sahələrinin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, yeni texnologiyanın tətbiq edilməsinə, ictimai və siyasi problemlərin həllinin nəticəsindən asılı olmayaraq bütün yenilikçi və yaradıcı təşəbbüslərə istinad edir.

Sahibkar məfhumunun məzmunu və mahiyyətini əks etdirən ifadə ilk dəfə fransız iqtisadçısı R.Kantilyon (1680-1734) tərəfindən işlədilmişdir. Onun fikrincə sahibkarlar, mənfəət götürmək məqsədilə digərlərindən məhsulu müəyyən qiymətə alaraq bazarda özünə hələ də məlum olmayan qiymətə satmağa çalışan insan qruplarıdır. Sahibkar isə xüsusi növ iqtisadi funksiya icra edərək, müxtəlif növ əmtəələr bazarında tələblə təklif arasında uyğunluq yaratmağa xidmət edir.

Sahibkarlıq fəaliyyətinin daha dolğun anlayışının verilməsində alman iqtisadçısı V. Zombartın da (1863-1941) rolu az olmamışdır. O, sahibkarlıq fəaliyyəti qarşısında duran məqsədi iki qrupa - əsas və asılı məqsədlərə ayırmışdır. Onun fikrincə, mənfəət əldə edilməsi sahibkarlıq fəaliyyətinin əsas məqsədi deyil, ikinci dərəcəli məqsədidir. Bu fəaliyyətin əsas məqsədi isə daima inkişaf etmək, çiçəklənmək, genişlənməkdir. O, göstərirdi ki, bu məqsədə çatmaq üçün sahibkar hər cür risk etməyə hazır olmalıdır, inadkarlıq və inam göstərməli, ümumi mənafe naminə bir çox insanları işə cəlb etməyi bacarmalıdır, yəni təşkilatçı olmalıdır.

Araşdırmalar göstərir ki, maliyyənin məzmunu və prinsipləri ictimai istehsal üsulu və cəmiyyətin inkişafının iqtisadi qanunları ilə müəyyən olunur. Borcların dövlətin daxili xərcləri hesabına silinməsi, müxtəlif dotasiyalar və subsidiyalar vermək yolu ilə müəssisələrin maliyyə vəziyyətinin süni sağlamlaşdırılmasını təmin edən sosialist istehsal üsulundan fərqli olaraq, bazar iqtisadiyyatı şəraitində mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün istehsal subyektləri özünümaliyyələşdirmə və öz xərcini ödəmə şəraitində iqtisadi siyasətin həyata

keçrilməsinin mühüm aləti olmaqla cəmiyyətdə əmtəə-pul münasibətlərinin reallaşdırılması ilə bağlı olan ən mühüm iqtisadi kateqoriyalardan biridir, əmtəəlik məhsul istehsalı, bölgüsü, mübadiləsi və istehlakı onun dəyərinin durmadan hərəkəti ilə müşayiət olunur. Bu isə müəssisədə ümumi maliyyə zərurətini şərtləndirir.

Dissertasiyada maliyyənin mahiyyəti və funksiyalarına dair iqtisadi ədəbiyyatlardakı müxtəlif baxışlar təhlil olunur. Göstərilir ki, maliyyənin funksiyalarına münasibətdə iqtisadçılar arasında fikir ayrılıqları mövcuddur. Əksər iqtisadçılar hesab edirlər ki, maliyyə iki funksiyanı, bölgü və nəzarət funksiyasını yerinə yetirir. Məsələn Ponamerenko E.V. belə hesab edir ki, xalq təsərrüfatı sahələrinin və müəssisələrinin maliyyəsi hər şeydən əvvəl müəssisələrin fondlarının dövriyyəsini ifadə etmək funksiyasını yerinə yetirir. Sahənin maliyyəsində bu sərbəst funksiyanın mövcudluğu ondan irəli gəlir ki, fondların dövriyyəsi və dövr etməsi maddi istehsalın təmin olunması üçün zəruri şərtdir. Bir sıra iqtisadçılar müəssisənin fondlarının geniş təkrar istehsalının maliyyənin bölgü funksiyasının gedişatı prosesində təmin olunduğunu əsas tutaraq bu funksiyanın sərbəst mövcudluğunu qəbul etmirlər. Onlar bölgü funksiyasının əsas məzmununu ictimai məhsulun və yeni yaradılmış dəyərin bölüşdürülməsinə gətirib çıxarırlar. Bizim fikrimizcə, fondların formalaşdırılması və dövriyyəsinin təşkili bölgü funksiyasının məzmununa uyğun gəlmir. Çünki, mənfəətin amortizasiya ayırmalarının və müəssisədaxili digər vəsaitlərin istehsalının genişləndirilməsinə sərf edilməsini bölgü münasibətlərinə aid etmək olmaz. Müəssisənin maliyyəsi özünün bölgü funksiyası ilə fondların dövriyyəsinin bütün mərhələlərində iştirak edir, istehsal subyektlərinin istehsal fəaliyyətində istehsal fondlarının maddi əşya formasında mütəmadi hərəkəti baş verir. Eyni zamanda, müəssisə fondlarının dövriyyəsinin təmin olunması üzrə sahə maliyyəsinin həyata keçirdiyi funksiyaların maddi əsasını təşkil edir. Müəssisənin fondlarının dövriyyəsində maliyyənin planlaşdırılması və onların maliyyələşdirilməsi prosesi də başa çatır. Müəssisələrin amortizasiya ayırmaları fondlarının, dövriyyə vəsaiti fondlarının və yığım fondlarının formalaşması və istifadəsi maliyyənin köməkliyi ilə baş verir.

Aqrar islahatların dərinləşməsi şəraitində kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi və istehsalçılara müxtəlif istiqamətlərdə dəstək göstərilməsi, o cümlədən güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Kənddə mülkiyyət münasibətləri inkişaf edir, iqtisadi münasibətlər təkmilləşir, yeni mülkiyyət və sahibkarlıq formalarının əmələ gəlməsi prosesinin sürətləndirilməsi müşahidə edilir. Qeyd edək ki, respublikada xüsusi mülkiyyətə əsaslanan çoxnövlü təsərrüfatçılıq formalarının yaradılmasına və inkişaf etdirilməsinə ciddi fikir verilir. Statistik məlumatların təhlili göstərir ki, 2005-ci ildə aqrar sahədə çoxnövlü təsərrüfatçılıq formalarından olan fərdi sahibkarların sayı 2681-ə çatsada 2013-cü ildə 347 ədəd azalaraq 2334 ədədə, 2014-cü ildə isə 2013-cü ilə nisbətən 710 ədəd azalaraq 1624 ədədə, 2015-ci ildə isə 2014-cü ilə nisbətən 90 ədəd azalaraq 1534-ə çatmışdır, digər özəl təsərrüfatların sayı 1003-ə, sair dövlət müəssisələrinin sayı 235-ə, fiziki şəxs statuslu ailə təsərrüfatlarının sayı 887 minə, kooperativlərin sayı 58-ə, xidmət təşkilatlarının sayı 539-a çatmışdır. 2015-ci ildə respublikamızın kənd təsərrüfatında 3410 kiçik sahibkarlıq subyektləri fəaliyyət göstərmişdir. Eyni zamanda, sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin sayı 1659 ədəd olmuş və bu müəssisələrdə 4734 nəfər işçi çalışmışdır. Kənd təsərrüfatında fəaliyyət göstərən kiçik müəssisələrdə istehsal edilən məhsulun (işin və xidmətin) həcmi 36411,4 min manat olmuşdur. 2015-ci ildə kənd təsərrüfatında 18 xarici və müştərək müəssisə fəaliyyət göstərmişdir ki, bu müəssisələrdə də 235 nəfər çalışmış və həmin müəssisələrdə istehsal edilən məhsulun həcmi 5766,9 min manat təşkil etmişdir. Kənd təsərrüfatında fəaliyyət göstərən 1534 fərdi sahibkarların ailə üzvlərinin sayı 5973 nəfər, kənardan cəlb edilmiş işçilərin sayı 1800 nəfər təşkil etmişdir. Kənd təsərrüfatında fərdi sahibkarlıq qurumlarının sərəncamında olan mövcud torpaq sahəsinin həcmi 33363 hektar olmuş, onun da 32530 hektarını kənd təsərrüfatına yararlı torpaqlar təşkil etmişdir.

Kənd təsərrüfatında sahibkarlığın inkişafında dövlət himayədarlığında maliyyə-kredit siyasəti mühüm yer tutmalıdır. Bu məqsədlə Azərbaycan

sahibkarlarına yerli və beynəlxalq təşkilatların maliyyə və kredit yardımının təşkili işinin gücləndirilməsi məqsədyönlüdür.

Bazar iqtisadiyyatı şəraitində şirkətlər, müxtəlif kooperasiyalar daha çox mənfəət götürəcəkləri sahələrdə çalışırlar. Lakin bununla yanaşı iqtisadi sahələrin, onun vacib halqası olan aqrar sahənin elə üstün sahələri var ki, ora qoyulan kapital uzun müddətdən sonra mənfəət gətirir. Ona görə də dövlət səviyyəsində bu sahələr tezliklə müəyyənləşdirilməli və güzəştli şərtlərlə, qaydalarla tənzimlənməlidir. Fikrimizcə, bankların aşağı faizli kreditləri əsasən kəndli təsərrüfatlarına, istehsalla məşğul olan kooperativlərə, istehlak malları istehsal edən müəssisələrə yönəldilməlidir. Ona görə də baha kredit siyasəti aparmaqla yanaşı, üstün sahələrə güzəştli kreditlər də verilməlidir. Hazırda kənd təsərrüfatı müəssisələrinin çoxlu kredit borcları yığılıb qalmış, problemli kreditlərin sayı artmışdır. Problemli kreditlərin sayının və həcminin artmasında 2015-ci ilin ilk ayında milli valyutanın 33% devalvasiyaya uğraması daha çox təsir etmişdir. Belə vəziyyətdə banklar müəssisələrin əksər hissəsini ödəmə qabiliyyətsiz hesab edə bilər və onların fəaliyyətinin dayandırılmasına xitam verə bilər. Lakin, bu vəziyyəti daha da gərginləşdirər və kreditlə bağlı böhranı dərinləşdirə bilər.

Kənd təsərrüfatında fəaliyyət göstərən yerli sahibkarların xarici inhisarçılardan çox həssaslıqla, çevik surətdə qorunması vacibdir. Burada əsas diqqətin sağlam rəqabət mühitinin yaradılmasına xələl gətirməmək şərti ilə bütün cəhətlərdən zəif olan yerli sahibkarlığın qorunmasına yönəldilməsi məqsədəuyğun hesab edilir.

**Dissertasiya işinin ikinci fəslində** “Aqrar sahədə sahibkarlıq fəaliyyətinin maliyyə-kredit mexanizminin mövcud vəziyyəti” öyrənilərək təhlil olunmuşdur. Bu fəsildə aqrar sahədə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətləri təhlil olunmuş, aqrar sahədə sahibkarlıq fəaliyyətinin genişlənməsində maliyyə-kredit mexanizminin rolu və aqrar sahədə əmtəə istehsalçıları ilə xidmət sahələri arasındakı əlaqələrin tənzimlənməsinə iqtisadi mexanizmin təsiri məsələləri araşdırılmışdır.

Aqrar sahədə bazar münasibətlərinin inkişaf etdirilməsi geniş tədbirlər proqramının həyata keçirilməsini tələb edir. Odur ki, Azərbaycan Respublikasının hər bir bölgəsinin təbii-iqtisadi şəraitini nəzərə alaraq ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək məqsədilə müstəqil və müxtəlif növlü təsərrüfatçılıq formalarının yaradılması və onların fəaliyyətinin gücləndirilməsi ən vacib məsələ kimi qarşıya qoyulur.

Statistik məlumatların təhlili göstərir ki, islahatların birinci mərhələsində respublikada 40 dövlət kənd təsərrüfatı müəssisəsi, 123 sair dövlət təsərrüfatı (elmi-tədqiqat və tədris-təcrübə təsərrüfatları daxil edilməklə), baş məşğulluq idarəsinin nəzdində yaradılmış kənd təsərrüfatı ilə məşğul olan 97 dövlət müəssisəsi, sənaye, digər müəssisə və təşkilatların 39 yardımçı kənd təsərrüfatı müəssisələri, 1191 kollektiv müəssisə (birgə təsərrüfatlar daxil edilməklə), 156 kənd təsərrüfatı istehsalı kooperativi, 2 kolxoz, 4 səhmdar cəmiyyəti (yalnız dövlət mülkiyyətində saxlanılanlar), 594 sair kənd təsərrüfatı müəssisəsi, 2681 rəsmi qeydiyyatdan keçən ailə kəndli təsərrüfatları (əvvəllər fermer təsərrüfatı adlandırılanlar), 34 kənd təsərrüfatına xidmət göstərən mexanikləşdirilmiş dəstələr (aqroservislər), 226 kənd təsərrüfatına xidmət göstərən sudan istifadə assosiasiyaları fəaliyyət göstərmişlər. Təsərrüfat formalarının strukturunun təkmilləşməsi ilə əlaqədar sonrakı dövrdə təsərrüfat formalarının tərkibində də müxtəlif dəyişikliklər olmuşdur. Aqrar islahatlar nəticəsində yaradılmış yeni sahibkarlıq subyektlərinin 2010-2015-ci illər üzrə inkişaf tempinin dinamikasını cədvəl 1-dən görmək olar.

**Cədvəl 1.**

Kənd təsərrüfatı müəssisələri, xidmət təşkilatları və fərdi sahibkar təsərrüfatlarının sayı, ilin sonuna

| **Göstəricilər** | **İ l l ə r** | | | | | | **2010-cu ilə nisbətən 2015-ci ildə %-lə** |
|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | |
| Kənd təsərrüfatı müəssisələri və xidmət təşkilatları | 2336 | 2343 | 1864 | 1860 | 1869 | 1837 | 78,6 |
| O cümlədən: | | | | | | | |
| -kənd təsərrüfatı | 1825 | 1917 | 1360 | 1337 | 1334 | 1298 | 71,1 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| müəssisələri | | | | | | | |
| -dövlət müəssisələri | 217 | 254 | 241 | 238 | 240 | 235 | 108,3 |
| -kolxozlar | 2 | 2 | 2 | 2 | 2 | 2 | 100 |
| -kooperativlər | 73 | 69 | 72 | 72 | 64 | 58 | 79,4 |
| -digər özəl müəssisə və təşkilatlar | 1533 | 1592 | 1045 | 1025 | 1028 | 1003 | 65,4 |
| -xidmət təşkilatları | 511 | 426 | 504 | 523 | 535 | 539 | 105,5 |
| Fərdi sahibkarlar | 2618 | 2593 | 2451 | 2334 | 1624 | 1534 | 58,6 |

Mənbə: Azərbaycanın Kənd Təsərrüfatı., DSK-nin məlumatları əsasında tərtib edilmişdir. Bakı-2016

Cədvəldən göründüyü kimi 2010-cu illə müqayisədə 2015-ci ildə aqrar sahədə kənd təsərrüfatı müəssisələri və xidmət təşkilatları 21,4%, o cümlədən kənd təsərrüfatı müəssisələri 28,9%, digər özəl müəssisə və təşkilatlar 34,6% və kooperativlər 20,6% azalmışdır. Müqayisə olunan illər üzrə dövlət müəssisələri 8,3%, xidmət təşkilatları isə 5,5% artmışdır. Fərdi sahibkarlıq təsərrüfatlarının sayı isə 41,4% azalmışdır.

Mülkiyyət növləri üzrə fəaliyyət göstərən müəssisələrin tərkibində kənd təsərrüfatı, meşə və balıqçılıq üzrə fəaliyyət göstərən müəssisələrin xüsusi çəkisi 1-15% arasında tərəddüd edir. Müəssisələrin fəaliyyətində iqtisadi mexanizmlərin tətbiqinin düzgün müəyyən edilməməsi səbəbindən əldə edilən mənfəətin azalması fonunda onların sayının azalması müşahidə edilir.

Statistik məlumatların təhlili göstərir ki, ölkədə fəaliyyət göstərən müəssisələrin əsasən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə müəssisələrin sayı azalmışdır. Belə ki, ümumi olaraq xüsusi mülkiyyətdə müəssisələrin sayı 2015-ci ildə 2010-cu ilə nisbətən 8,4% artsada, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə müəssisələrin sayı 7,1% azalmışdır. Eyni zamanda, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə müəssisələrin ümumi müəssisələrin tərkibində 2010-cu ildə 12,8%, 2011-ci ildə 14,8%, 2012-cü ildə 13,4%, 2013-cü ildə 12,3% və 2014-cü ildə 11,4%, 2015-ci ildə 11,0% təşkil etmişdir ki, bu da kənd təsərrüfatına investisiya qoyuluşunun az olması və müəssisələrin gəlirlərinin aşağı və maliyyə vəziyyətinin çətin olması ilə əlaqədardır.

Qeyd edək ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin tərkibində kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq üzrə müəssisələrin xüsusi çəkisi son illərdə 9-12,5% arasında dəyişmişdir.

Sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin inkişaf dinamikası cədvəl 2.-də verilmişdir.

Cədvəldən göründüyü kimi, 2010-cu ildə kənd təsərrüfatında sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin xüsusi çəkisi 9,2% təşkil edirdisə, 2014-cü ildə bu göstərici 12,5%, 2015-ci ildə isə yenidən 9,2% olmuşdur. Müvafiq illər üzrə ümumi xarici və birgə müəssisələrin kənd təsərrüfatında fəaliyyət göstərənlərin xüsusi çəkisi isə 0,5%; 1,3% və 1,4% olmuşdur.

**Cədvəl 2.**

Kənd təsərrüfatında sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin inkişaf dinamikası

| **Göstəricilər** | **Ölçü vahidi** | **İ l l ə r** | | | | | **2015/ 2010-cü ildə, %-lə** |
|---|---|---|---|---|---|---|---|
| | | **2010** | **2012** | **2013** | **2014** | **2015** | |
| Cəmi kiçik müəssisələr | ədəd | 14532 | 13658 | 14461 | 14981 | 17847 | 122,8 |
| O cümlədən; K/ təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq | ədəd | 1335 | 1522 | 1663 | 1786 | 1659 | 124,3 |
| Onlarda işləyənlər. | nəfər | 5396 | 5253 | 5550 | 5869 | 4734 | 87,7 |
| Orta aylıq əmək haqqı | manat | 107,7 | 134,0 | 153,5 | 186,9 | 171 | 159,7 |
| Məhsulun (işin və xidmətin) həcmi | min manat | 35315,5 | 63540,6 | 195538,2 | 226795,2 | 36411,4 | 103,1 |
| Xarici və birgə müəssisələrin fəaliyyəti | ədəd | 1091 | 1083 | 1193 | 1270 | 1235 | 113,2 |
| O cümlədən K/ təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq | ədəd | 6 | 20 | 16 | 17 | 18 | 3,0 dəfə |
| Onlarda işləyənlər. | nəfər | 286 | 352 | 289 | 211 | 235 | 82,2 |
| Orta aylıq əmək haqqı | manat | 161,9 | 221,9 | 246,4 | 240,6 | 259,4 | 160,2 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Məhsulun (işin və xidmətin) həcmi | min manat | 5802,3 | 6346,1 | 8133,8 | 17626,5 | 5766,9 | 99,4 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri.,DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı-2016

2010-2015-ci ildə kənd təsərrüfatında sahibkarlıq formalarının ləng inkişafının başlıca səbəblərini aşağıdakı amillərlə əlaqələndirmək olar:

– təsərrüfat formalarının yaradılaraq inkişaf etdirilməsində ilkin kapital yığımının olmaması;
– təsərrüfat növlərinin formalaşdırılmasında mühüm rol oynayan innovasiya probleminin hələlik öz həllini tapmaması;
– sahibkarlığın inkişafının dövlət tərəfindən tənzimlənməsi mexanizminin bazar münasibətinin tələblərinə tam uyğun formalaşmaması;
– bazar iqtisadiyyatının inkişafının hazırkı mərhələsində maliyyə-kredit sahəsində yaranmış və əksər sahibkarlıq təsərrüfatlarının formalaşdırılmasında mövcud olan bir sıra çoxsaylı çətinliklər;
– aqrar sahədə aparılan iqtisadi islahatlarla əlaqədər olaraq maddi-texniki bazanın kənd əməkçiləri arasında bölüşdürülməsi sahəsində baş vermiş uyğunsuzluqlar, texniki vasitələrin fiziki şəxslər arasında bölüşdürülməsi və onlardan istifadə olunması, saxlanması, təmir olunması sahəsində yaranmış çətinliklər, texniki vasitələrdən istifadə bacarığının olmaması, texniki vasitələrin baxımsızlıq üzündən fiziki cəhətdən aşınaraq sıradan çıxması.

Qeyd edək ki, son illərdə aqrar sahənin, xüsusəndə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün mühüm addımlar atılmaqdadır. Belə ki, tək 2014-cü ildə bir sıra sərəncamlar verilmiş və 2015-ci il kənd təsərrüfatı ili elan edilmişdir ki, bu da bu sahənin, yəni qeyri-neft sektorunda ən mühüm sahə olan kənd təsərrüfatının inkişaf etdirilməsinin xüsusi diqqət mərkəzində olmasına dəlalət edir. Son illərdə həyata keçirilən proqramların keyfiyyətini və iqtisadi səmərəliliyini yüksəltmək üçün 2014-cü ildə Azərbaycan Respublikası Prezidenti "Kənd təsərrüfatı və ərzaq bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 16

yanvar 2014-cü il tarixli 221 №-li Sərəncam, "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və instusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014-cü il tarixli 152 №-li Fərman, "Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında" 4 iyun 2014-cü il tarixli Sərəncam, "Azərbaycan Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 6 iyun 2014-cü il tarixli Sərəncam vermişdir.

Kənd təsərrüfatında bazar münasibətləri inkişaf etdikcə bazar infrastrukturlarının formalaşması prosesi, sərbəst bazar strukturları ilə bank, maliyyə, dövlət büdcəsi və sair maliyyə institutları arasında iqtisadi münasibətlər güclənir. Maddi-texniki resurslar bazarlarının formalaşması prosesi sürətlənir, istehsal faktorlarından istifadəyə tələbat artır. Belə vəziyyətdə kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrin inkişafı nəinki sahibkarların şəxsi vəsaitindən, habelə büdcə vəsaitindən və maliyyə institutlarının kredit ehtiyatlarından səmərəli istifadə olunmasını tələb edir. Çünki, formalaşma mərhələsinə qədəm qoymuş istehsal subyektlərinin təsərrüfat fəaliyyətindən əldə olunan cüzi mənfəət məbləği təsərrüfatların genişləndirilməsinə və geniş təkrar istehsalın həyata keçirilməsinə kifayət etmir.

Aqrar sahənin inkişafı istiqamətində dövlətin apardığı davamlı siyasət nəticəsində SKMF-u tərəfindən sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlərin həcmi ilbəil daha da artmaqla bərabər iqtisadi rayonlar üzrə də inkişaf etmişdir.

2010-2015-ci illərdə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən aqrar sahədə sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlər haqqında məlumat cədvəl 3-də verilmişdir.

**Cədvəl 3.**

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən aqrar sahədə sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlər (2010-2015-ci illərdə)

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2010-cu ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|

| | | | | | | | **2015-ci ildə %-lə** |
|---|---|---|---|---|---|---|---|
| Sahibkar subyektlərinin sayı | 1430 | 1643 | 2419 | 4468 | 5560 | 5243 | 3,6 dəfə |
| Verilən güzəştli kreditlər mln.man | 115 | 138 | 218 | 275 | 295 | 248,5 | 2,2 dəfə |
| Açılacaq iş yerlərinin sayı | 5609 | 6478 | 9100 | 12045 | 12564 | 12600 | 2,2 dəfə |
| Aqrar sahə üzrə verilən güzəştli kreditlər mln. man | 88,7 | 109,4 | 148,5 | 189,2 | 243,9 | 213,0 | 2,4 dəfə |
| Müxtəlif sənaye və s. sahələr üzrə verilən güzəştli kreditlər mln.man | 26,3 | 28,5 | 69,5 | 85,8 | 51,1 | 35,5 | 135,0 |
| O cümlədən: | | | | | | | |
| Kiçik həcmli investisiya layihələrinə mln.man | 17,5 | 19,3 | 28,3 | 52,9 | 63,9 | 55,5 | 3,2 dəfə |
| Orta həcmli investisiya layihələrinə mln.man | 1,0 | 4,1 | 6,4 | 4,3 | 7,5 | 6,1 | 6,1 dəfə |
| Böyük həcmli investisiya layihələrinə mln.man | 14,9 | 114,6 | 183,3 | 217,8 | 223,6 | 186,9 | 12,5 dəfə |
| İri həcmli investisiya layihələrinə mln.man | 81,4 | - | - | - | - | - | - |

Cədvəl SKMF-nın illik hesabat məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2010-cu ilə nisbətən 2015-ci ildə sahibkarlığa kömək milli fondu tərəfindən güzəştli kreditlər verilmiş sahibkarlıq subyektlərinin sayı 3,6 dəfə, verilən güzəştli kreditlərin həcmi 2,2 dəfə, açılacağı planlaşdırılan iş yerlərinin sayı 2,2 dəfə, aqrar sahə üzrə verilən kreditlərin həcmi 2,4 dəfə, müxtəlif sənaye və s. sahələr üzrə verilən güzəştli kreditlərin həcmi 35,0%, kiçik həcmli investisiya layihələrinə verilən güzəştli kreditlərin həcmi 3,2 dəfə, orta həcmli investisiya layihələrinə 6,1 dəfə və böyük həcmli investisiya layihələrinə verilən güzəştli kreditlərin həcmi 12,5 dəfə artmışdır. 2014-cü illə müqayisədə isə 2015-ci ildə kredit alan sahibkarların sayı 5,7%, aqrar sahə üzrə verilən güzəştli kreditlər isə 12,7% azalmışdır. Tədqiqatlar göstərir ki, aqrar sahə üzrə xüsusəndə kənd təsərrüfatı üzrə kreditlərin verilməsinə baxmayaraq məhsulların satış qiymətinin tələb və təklifdən asılı olmaları, eyni zamanda tənzimlənməməsi sahibkarların gəlirlərinin artmasına

mənfi təsir göstərir. Bu isə öz növbəsində verilən kreditlərin iqtisadi səmərəliliyinin aşağı olmasına səbəb olur.

Sahibkarlığa Kömək Milli Fondu aqrar sahə ilə yanaşı, digər sahələrin də güzəştli şəkildə kreditləşdirilməsini həyata keçirir. Lakin qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalçılarını maliyyə ehtiyatları ilə təmin etmək vəzifəsini yerinə yetirmək, istər maliyyələşdirmə obyektlərinə, istərsə də təşkil prinsiplərinə görə digər sahələrin kreditləşdirilməsindən əhəmiyyətli dərəcədə fərqlənir.

Kənd istehsalçılarını narahat edən əsas məsələlərdən biri də kreditlər üçün qoyulmuş ödəniş faizlərinin yüksək olmasıdır.

Araşdırmalar göstərir ki, kreditə görə ödəniş faizlərinin yüksək olması nəticəsində kreditdən istifadə edən subyektlər alınmış faizlər daxil olmaqla krediti vaxtında qaytara bilmir, istehsalçıların faizlərə görə ödəməli olan vəsait vaxtında qaytarılmır, kredit məbləğini üstələyir.

"İcraçı Kredit Agentliyi" tərəfindən verilmiş kreditlər üzrə 31.03.2015-ci il tarixinə tərtib edilmiş ümumi statistik hesabat cədvəl 4-də verilmişdir.

**Cədvəl 4.**

31.03.2015-ci il tarixinə "İcraçı Kredit Agentliyi" tərəfindən verilmiş kreditlər

| Göstəricilər | Birgə Borclular | Kredit İttifaqları | Cəmi |
|---|---|---|---|
| Verilmiş kreditlərin məbləği, mln. manat | 44,4 | 84,1 | 128,5 |
| Verilən kreditlərin sayı (kişi) | 53586 | 25864 | 79450 |
| Verilən kreditlərin sayı (qadın) | 30903 | 12136 | 43039 |
| Cəmi verilən kreditlərin sayı | 84489 | 38000 | 122489 |
| Kredit qalığı olan üzvlərin sayı | 2167 | 10130 | 12297 |
| Aktiv olan təşkilat | 422 | 43 | 465 |

Cədvəl İKA-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin təhlilindən göründüyü kimi İKA tərəfindən 31.03.2015-ci il tarixinə 128,5 mln. manat kredit verilmişdir ki, onun da 34,5%-i birgə borclu qruplarının, 65,5%-i kredit ittifaqlarının, payına düşmüşdür. Belə ki, 31.03.2015-ci il tarixinə İKA tərəfindən birgə borclu qruplarına 44,4 mln manat, kredit ittifaqlarına 841,1 mln manat kredit verilmişdir. 30.09.2009-cu ildə istehlak məqsədi ilə isə 1 817419

manat kredit verilmişdir. Sonrakı illərdə bu məqsədlə verilən kreditlər dayandırılmışıdır.

İKA Kredit İttifaqlarına və Birgə Borclu qruplarına kredit ayrılmasını təmin edir və kreditlər heyvandarlıq, bitkiçilik, kiçik biznes və pərakəndə ticarət sahələrinə ayrılır. Kİ-lərə təmir işlərini yerinə yetirmək məqsədilə də kredit ayrıla bilər. Qeyd edilənlərlə yanaşı olaraq İKA daşınmaz əmlak və dövriyyə vəsaitləri alınması, kommersiya fəaliyyətinin həyata keçirilməsi üçün də kredit verə bilər. İKA tərəfindən kənd təsərrüfatı və s. fəaliyyət təyinatlı kreditlərin həcmi və şərtləri cədvəl 5-də verilmişdir.

**Cədvəl 5.**

İKA tərəfindən kənd təsərrüfatı və s. fəaliyyət təyinatlı verilən güzəştli kreditlərin həcmi və şərtləri.

| Göstəricilər | Kredit şərtləri | Kredit şərtləri |
|---|---|---|
| Məbləğ, manat | 500-5000 | 5001-20000 |
| Təminat | Tələb olunmur (zaminlik) | - |
| Girov | - | Nəqliyyat vasitəsi və ya daşınmaz əmlak |
| Müddət | 18 ayadək | 24 ayadək |
| Güzəşt dövrü | Yalnız təsərrüfat fəaliyyəti olan müştərilərə tətbiq oluna bilər | Yalnız təsərrüfat fəaliyyəti olan müştərilərə tətbiq oluna bilər |
| Faiz dərəcəsi | FİFD -25% | FİFD -25% |
| Təyinat | Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, Heyvandarlıq, Ticarət, İstehsal, Xidmət | Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, Heyvandarlıq, Ticarət, İstehsal, Xidmət |

Cədvəl İKA-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Onu da qeyd edək ki, verilən kreditlərin şərtləri "İcraçı Kredit Agentliyi" BOKT-nin "Mikrokredit üzrə kredit sifarişlərinin baxılması və verilməsi" barəsində təlimatla tənzimlənir.

Apardığımız tədqiqatlar göstərir ki, İKA-dan bir qayda olaraq, belə qaydada kreditlərin alınmasında artıq öz istehsalını qaydaya salmış və onun sonradan təşkmilləşdirilməsini nəzərdə tutan kənd təsərrüfatı istehsalçıları maraqlıdırlar. Onlar respublika iqtisadiyyatının keçid dövrünün çətinliklərini yaşamış, bazar

münasibətlərinin yeni tələblərinə tez uyğunlaşmağı bacarmışlar. Amma belə istehsalçılar o qədər də yüksək xüsusi çəkiyə malik deyillər.

Kreditə görə ödəniş faizinin yüksək olması kreditə böyük ehtiyacı olan hüquqi və fiziki şəxsləri kredit almaqdan çəkindirir, bu isə istehsalın inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına öz mənfi təsirini göstərir.

Nəzərə alınmalıdır ki, çox yaruslu kredit sisteminin formalaşması üçün qiymətli kağızlar bazarının təkmilləşdirilərək inkişaf etdirilməsi məqsədəuyğundur. Çünki, inkişaf etmiş qərb dövlətlərində bütün maliyyə-kredit institutları qiymətli kağızlar bazarı ilə sıx əlaqələndirilmiş və bunlar bir-biri ilə qarşılıqlı işgüzar fəaliyyət göstərirlər ki, bu da iqtisadiyyatın inkişafında mühüm rol oynayır.

**Dissertasiya işinin üçüncü fəslində** kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri tədqiq edilmişdir. Bu fəsildə sahibkarlığın inkişafına dövlət dəstəyinin kiçik və orta sahibkarlıq fəaliyyətinin əsas inkişaf istiqamətləri, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətləri və sahibkarlıq fəaliyyətinin kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri araşdırılmışdır.

Aparılan araşdırmalar göstərir ki, torpaq mülkiyyətinə sahib olan əksər ailə-kəndli təsərrüfatlarının fəaliyyətindən əldə etdikləri gəlirlərin məbləği xeyli azdır və ailələrin istehlak tələbatını tam ödəmir. Nəzərə alsaq ki, torpaqların özəlləşdirilməsi ilə əlaqədar olaraq respublika üzrə kənd təsərrüfatına yararlı torpaq sahələrinin 22%-i, becərilən torpaq sahələrinin təqribən 90%-i kəndli ailələrinin mülkiyyətindədir, kəndli ailələrinin istehsal etdiyi məhsullar və satışdan əldə etdiyi gəlirlərin özlərinin istehlak tələbatının ödənilməsinə kifayət etməməsi ölkənin kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin aşağı olmasını və fəaliyyətlərində yaranmış çətinliklərin aradan qaldırılması üçün müvafiq tədbirlərin yerinə yetirilməsini tələb edir. Bu, kənd təsərrüfatının inkişaf etdirilməsi və əhalinin məşğulluq səviyyəsinin artması üçün Azərbaycan əlverişli torpaq-iqlim şəraitindən səmərəli istifadə etməyə imkan açır.

Araşdırmalar göstərir ki, ailə təsərrüfatlarının bitkiçilik məhsulları istehsalından əldə etdikləri gəlir və ya bu məhsulların istehsalına sərf etdikləri dəyişən xərclərin məbləğinin son olaraq yüksək hədd kimi qiymətləndirmək düzgün olmaz. Bu onunla izah olunur ki, hal-hazırda ailə təsərrüfatları maliyyə imkansızlığı üzündən istehsal proseslərində sahələrə mineral gübrələr verilməsi, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi, aqrotexniki tədbirlərin həyata keçirilməsində maşın və mexanizmlərdən istifadə edilməsi, cins və repreduktiv toxumlardan istifadə olunması və s. bu kimi intensiv amillərdən kifayət qədər istifadə edə bilmirlər. Bu səbəbdən də vahid sahədən götürülmüş məhsuldarlıq potensial imkanlar baxımından xeyli aşağıdır. Məhsuldarlığın aşağı olması isə sahələrin gəlirlilik səviyyəsinə əhəmiyyətli təsir göstərməklə təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin aşağı düşməsinə səbəb olur.

Ailə təsərrüfatlarının 2009-2015-ci illərə dair təsərrüfat-maliyyə fəaliyyətini təhlil edərkən maliyyə nəticələrinin zəif olmasında, məhsul istehsalına təsir edən amillərin araşdırılması zərurəti də yaranır. Məsələn suvarma suyunun vaxtında və düzgün verilməməsi üzündən bitkiçilik sahəsində qarğıdalı, buğda, kartof, yonca, günəbaxan sahələrindən məhsuldarlığın aşağı olması və məhsulun standart ölçülərə cavab verməməsi rəqabətqabiliyyətinin zəifləməsinə və nəticədə ailə təsərrüfatlarına dəymiş zərər kompensasiya olunmur. Bu da sonda sadə və ya geniş təkrar istehsalın həyata keçirilməsinə imkan vermir. Məhz bu baxımdan belə bir vəziyyətin yaranmasını şərtləndirən amillərin araşdırmasını məqsədəuyğun hesab etmişik.

Bazar iqtisadiyyatı şəraitində kənddə formalaşmış müxtəlif mülkiyyət formalı bazar subyektlərinin qarşılıqlı əlaqələrinin mövcud vəziyyətinin araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, yeni formalaşmaqda olan özəl sektor yeni iqtisadi münasibətlərə iqtisadiyyatın dövlət bölməsinin strukturlarına nisbətən daha tez uyğunlaşır. Başqa sözlə desək aqrar bölmənin çoxsaylı məhsul istehsalçıları ilə bunlara xidmət göstərən təşkilatlar arasında iqtisadi və maliyyə münasibətlərinin tənzimlənməsinin əsasını təşkil edən müqavilələrin tərtib edilməsi, müqavilə

öhdəliklərinin yerinə yetirilməsi və öhdəliklərə cavabdehlik daşıması sahəsində özəl uklad dövlət ukladı ilə müqayisədə daha yüksək fəallıq nümayiş etdirdi. Belə ki, bu gün kənddə məhsul istehsalçılarına müxtəlif xidmət növləri göstərən qurumların sayı olduqca azdır və onlarla rəqabətdə olan alternativ qurumlar yoxdur. Belə vəziyyət xüsusilə dövlət mülkiyyətində olan suvarma sistemləri və enerji ilə təmin etməyə məsul olan tərəflər üçün daha xarakterikdir. Aqrar bölmənin məhsul istehsalçılarının səmərəli təsərrüfat fəaliyyəti qeyd etdiyimiz bu iki dövlət müəssisəsinin necə xidmət göstərməsi vəziyyətindən asılıdır.

Suvarılan torpaqlarda bitkilərin vegetasiya dövründə suvarılmaları üçün kənd təsərrüfatı məhsulları istehsalçılarını suvarma suyu ilə təmin etmək üçün yaranmış çətinlikləri vaxtında aradan qaldırmırsa deməli bitkilərin məhsuldarlığı xeyli aşağı düşür, bəzi hallarda isə sahədən tamamilə məhsul götürülmür. Bunun isə yalnız bir əsaslı səbəbi vardır ki, o da bu xidmət sahələrinin alternativi olmaması səbəbindən və ya bu sahədə alternativ təsərrüfat və ya xidmət sahələrinin olmamasından rəqabət mühiti formalaşmamışdır.

Qeyd edilən bu amillər istənilən təsərrüfat formasında istehsal üçün qoyulan vəsaitin və ya alınan kreditin iqtisadi səmərəliliyinin aşağı düşməsinə səbəb olur ki, bu da öz növbəsində maliyyə nəticələrinin aşağı olması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, keçmiş sovetlər ittifaqında mövcud olan, iri və orta emal müəssisələrinin əksəriyyətində əsas istehsal fondlarının təxminən köhnəlmə dərəcəsi 53-55%-ə bərabər idi. İndi isə mövcud emal sənayesi müəssisələrində istehsal avadanlıqlarının yüklənmə səviyyəsi təxminən 43%-dən aşağıdır. Bu isə onu göstərir ki, hal-hazırda respublikada fəaliyyət göstərən bir sıra emal müəssisələrində istehsal güclərindən səmərəli istifadə edilmir. Odur ki, emal müəssisələrində istehsalın yenidən qurulması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi məqsədi ilə əsas istehsal fondlarının yeniləşdirilməsi və eləcə də istehsal güclərindən istifadə imkanlarının artırılması mühüm əhəmiyyət kəsb edir.

Bazar iqtisadi münasibətlərinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərə baxmayaraq, emal müəssisələrinin xammal istehsalçıları üzərində inhisarçılıq təsiri tam aradan qalxmamışdır. Sovet iqtisadi sistemində emal

müəssisələri ilə xammal istehsalçıları arasında qiymət və digər maliyyə münasibətləri məhsulların tədarükü sistemi ilə tənzimlənirdi. Vaxtilə mövcud olan tədarük sisteminin ləğv edilməsi və kənd təsərrüfatı məhsullarının qiymətlərinin sərbəstləşdirilməsi yeni istehsal münasibətlərinə müvafiq olaraq kənd sahibkarlarının mövqeyinə xidmət göstərməli idi. Emal müəssisələri üçün xammal istehsal edənlərin üzləşdikləri çətinliklərə aşağıdakılar daxildir:

- hazır məhsullarının saxlanılması;
- onların emalı, daşınması imkanlarının məhdud olması;
- məhsulların uzun müddətdə saxlanılmasının qeyri-mümkünlüyü;
- emal müəssisələri xammal istehsalçılarının maddi-texniki bazasının zəif olması.

Qeyd edilən bu çətinliklər fonunda emal müəssisələri üçün xammal istehsalçıları mexanikləşdirilmiş işlərin yerinə yetirilməsi üçün kənara böyük məbləğdə vəsait vermək məcburiyyətində qalır. Respublikanın kənd təsərrüfatında formalaşmış tarif stavkalarını bu günün reallığını əks etdirən əsas göstəricilərə aid etmək olar. Xaçmaz rayonunun timsalında bu göstəricilər aşağıdakılardan ibarətdir. Bir hektar sahənin şumlanması üçün kəndli sahibkar texniki vəsaitlərə sahib olanlara 50 manat, həmin sahənin diskilənməsinə 40 manat, malalanmasına 35 manat, sahəyə toxum səpilməsinə 15-20 manat, sahədən taxılın yığılmasına 40 manat vəsait ödəyir. Qeyd etdiyimiz tədbirlər üzrə kəndli sahibkara xidmət göstərənin faktiki xərclərinin təhlilindən məlum olur ki, xidmət göstərənin hektar hesabı ilə faktiki sərf etdiyi orta xərc məbləği bu xidmətə görə sifarişçidən (kəndli sahibkardan) aldığı faktiki məbləğin 35-40%-ni təşkil edir. Bu hesabla kəndli sahibkara texniki xidmət göstərən hüquqi və ya fiziki şəxsin xidmətə sərf etdiyi hər bir manat əlavə olaraq 2-2,5 manat ölçüsündə gəlir gətirir.

Kənd təsərrüfatı məhsullarının satışının göstərilən qaydada həyata keçirilməsi həm istehsalçıları, həm də alıcılıq qabiliyyəti aşağı olan geniş kütlənin marağına uyğun gəlmir. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsalçıdan son istehlakçıya çatdırılması prosesində vasitəçilərin sayı çoxaldıqca məhsulların qiymətləri də yüksəlir. Dövlət tərəfindən bazar qiymətlərinin tənzimlənməsi

mexanizmi tətbiq edilmədiyindən bazarda tələbə müvafiq təklifi və bunların əsasında qiymətləri vasitəçilər formalaşdırır.

Məhz bu baxımdan mövcud problemin həlli üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəmüvafiq hesab edirik:

- kənd təsərrüfatı məhsullarının təminatlı qiymətlərlə tədarükü və bu məhsulların bazar qiymətlərinin tənzimlənməsində istifadə olunması;
- əsas kənd təsərrüfatı məhsullarının fyuçers kontraktları ilə tədarükünün təşkili;
- kənddə və rayon mərkəzlərində kənd təsərrüfatı məhsullarının topdan satışını həyata keçirən ticarət evlərinin yaradılması;
- kəndlərdə kənd təsərrüfatı məhsullarının tədarükü və satışı ilə məşğul olan özəl xidmət strukturlarının yaradılması və s.

Təbiidir ki, bu tədbirlərin həyata keçirilməsi üçün böyük məbləğdə vəsait tələb olunur. Nəzərə alsaq ki, kənd əhalisinin bu məqsədlər üçün kifayət qədər sərbəst vəsaiti yoxdur, deməli tədbirlərin həyata keçirilməsi əsasən qısamüddətli kreditlər hesabına olmalıdır. Odur ki, kənd təsərrüfatı məhsullarının satışının təşkili üçün kredit resursları ayrılması vəzifəsini dövlətin öz üzərinə götürməsi məqsədəuyğundur.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, makroiqtisadiyyatın, eləcə də kənd təsərrüfatı istehsalının müvəffəqiyyətli inkişafı, həmçinin kənd təsərrüfatı əmtəə istehsalçıları ilə istər dövlətin və istərsə də emal müəssisələrinin qarşılıqlı münasibətlərində paritetliyin təyin edilməsi düzgün qurulmuş və elmi cəhətdən əsaslandırılmış maliyyə sisteminə söykənir. Nəticə etibarı ilə bunlar əmtəə-pul münasibətlərində istehsal strukturlarının iqtisadi mənafelərinin gözlənilməsinə səbəb olmaqla yanaşı həm də onların emal, maddi-texniki təchizat və tədarük strukturlarının inhisarçılıq təsirlərindən xilas olmasına gətirib çıxarır. Düzgün qurulmuş maliyyə mexanizmi kənd təsərrüfatı əmtəə istehsalçılarının geniş təkrar istehsal prosesinin müvəffəqiyyətlə başa çatmasına və bütövlükdə təsərrüfat-maliyyə subyektləri arasında ödəniş intizamına əməl olunmasına xidmət edir. Bu isə öz növbəsində istehsalçıların mənfəətlərinin tam həcmdə formalaşmasına, aqrar

sahədə və kənd təsərrüfatı məhsullarının emal sənayesində kapitalın sürətli dövriyyəsinə və istehsal strukturlarının təsərrüfat-maliyyə fəaliyyətinin ziyanla başa gəlməsinin qarşısının alınmasına səbəb olur.

Kredit əməliyyatlarının və pul emissiyasının tənzimlənməsi məqsədi ilə hər şeydən əvvəl təsərrüfat vahidlərinin fəaliyyətinə təsir və inflyasiyaya qarşı mübarizə vasitələrindən istifadə edilir. Bankın qiymətli kağızlarının tənzimlənməsi bank kreditlərinin və depozitlərinin strukturuna, pul kütləsinin həcminə, faizlərin bazar normasının səviyyəsinə əsaslı təsir göstərir. Dövlət borclarının tənzimlənməsi də eyni zamanda dövlət və xüsusi sektor arasında kredit kapitalının bölgüsünə, faiz dərəcələrinin səviyyəsinə, bank balanslarının və qiymətli kağızların strukturuna nəzərəçarpacaq dərəcədə təsir göstərir.

Pul-kredit siyasətinin ümumi metodlarına açıq bazar əməliyyatları və məcburi ehtiyatlar normasının müəyyən edilməsi daxildir. Məlumat üçün onu da qeyd edək ki, açıq bazar əməliyyatından və uçot siyasətindən fərqli olaraq pul-kredit tənzimlənməsinin məcburi ehtiyatlar normasının müəyyən edilməsi mexanizmi bank sisteminin əsaslarına toxunmaqla bütövlükdə ölkənin maliyyə-təsərrüfat sisteminə daha güclü təsir etmək iqtidarına malikdir.

Dissertasiya işinin sonunda tədqiqatın məzmunundan irəli gələn nəticə və təkliflər verilmişdir. Tədqiqatın məzmunu üzrə aşağıdakı məqalə və tezislər elmi jurnallarda və konfranslarda dərc olunmuşdur.

**1.** Aqrar sahədə maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafına təsiri., “Azərittifaq” Azərbaycan Kooperasiya Universiteti., Kooperasiya elmi-praktiki jurnal., № 4 (35)-2014., 0,2 ç.v.

**2.** Sahibkarlığın inkişafına dövlət dəstəyi, kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin əsas istiqamətləri., Az.ETKTİ və Tİ-nun elmi əsərləri. № 1., Bakı-2015., 0,2 ç.v.

**3.** Aqrar sahədə kiçik və orta sahibkarlıq fəaliyyətinin genişlənməsində maliyyə -kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri., “Azərittifaq”

Azərbaycan Kooperasiya Universiteti., Kooperasiya elmi-praktiki jurnal., № 4 (35)-2015., 0,2 ç.v.

**4.** Azərbaycan Respublikasında aqrar sektorun müasir vəziyyəti və inkişaf problemləri., AMEA-nın xəbərləri., İqtisadiyyat seriyası., 2015-5 (sentyabr-oktyabr)., 0,2 ç.v.

**5.** Sahibkarlığın inkişafına dövlət dəstəyi, kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin əsas istiqamətləri., Əmək və Sosial problemlər üzrə elmi-tədqiqat və tədris mərkəzi., Əmək və Sosial problemlər., Elmi əsərlər toplusu., № 1 (15)/2015., Bakı -2015., 0,2 ç.v.

**6.** Aqrar sahədə sahibkarlıq təsərrüfatları ilə xidmət sahələri arasındakı əlaqələrin iqtisadi mexanizminin mövcud vəziyyəti., Azərbaycan aqrar elmi., elmi-nəzəri jurnal., № 3/2015., 0,2 ç.v.

**7.** Пути совершенствования реглуривания роста доходов производителей сельскохозяйственной продукции в аграрном секторе., Международный технико-экономический журнал., экономические управление экология и технические сельскохозяйственные науки., № 2, 2016., Москва-2016., 0,2 п.л.

**8.** Kiçik və orta sahibkarlıq təsərrüfatlarının maddi-texniki resurslarla təminatının yaxşılaşdırılması istiqamətləri., KTİETİ-nun elmi əsərləri. № 1., Bakı-2016., 0,2 ç.v.

**9.** Sahibkarlıq fəaliyyətində maliyyə-kredit mexanizminin təkmilləşdirməsi istiqamətləri., Azərbaycanda Torpaq islahatı-20, Nailiyyətlər və Perspektivlər mövzusunda elmi-praktiki konfransın materialları., Bakı-2016., səh 400-403., 0,2 ç.v.

**ЮСИФОВА ШОВКЕТ АБУЗАР КЫЗЫ**
**Направления совершенствования финансово-кредитных механизмов в развитии малого и среднего предпринимательства в аграрной отрасли**


## Р Е З Ю М Е

Диссертационная работа посвящена вопросам обоснования характерных особенностей малого и среднего предпринимательства в формировании и развитии финансово-кредитного механизма в аграрной сфере.
Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во-введении обосновывается актуальность темы, степень ее изученности, определяется цель и задачи, научная новизна и практическая значимость исследования.

Первая глава диссертации называется: «Роль и значение финансово-кредитного механизма в работе малого и среднего предпринимательства в аграрном секторе и его теоретические основы». В данной главе исследованы вопросы обоснования роли и значения малого и среднего предпринимательства и влияние финансово-кредитных механизмов на дальнейшее их развитие в аграрном секторе.

Вторая глава диссертации называется: «Современное состояние финансово-кредитного механизма в предпринимательской деятельности в аграрном секторе». В этой главе дана характеристика и оценка финансово-кредитных механизмов в формировании и развитии предпринимательской среды в аграрной сфере, а также анализируется факторы, влияющие на регулирование хозяйственных связей между товаропроизводителями в аграрном бизнесе.

Третья глава диссертации называется: «Вопросы совершенствования финансово-кредитного механизма в развитии малого и среднего предпринимательства в аграрной сфере». В этой главе исследованы основные направления развития и совершенствования финансово-кредитного механизма в повышении эффективности работы бизнес-среды, государственная поддержка предпринимательской деятельности, а также вопросы, связанные с инвестициями и капитальными вложениями в предпринимательский сектор.

В заключении диссертации сформулированы основные выводы и предложения, полученные в результате исследования.

**YUSIFOVA SHOVKET ABUZHAR**

**Directions of improving financial and credit mechanisms in the development of small and medium-sized enterprises in the agrarian sector**

## S U M M A R Y

The thesis is devoted to problems of substantiation of characteristic features of small and medium business in formation and development of financial and credit mechanism in the agrarian sphere.

The dissertation consists of introduction, three chapters, conclusion and the list of used literature.

In the introduction, the relevance of the topic, the degree of its study, the goal and tasks, the scientific novelty and practical significance of the study are substantiated.

The first chapter of the dissertation is called: « The role and importance of the financial and credit mechanism in the work of small and medium-sized enterprises in the agricultural sector and its theoretical basis». The problems of substantiating the role and significance of small and medium-sized businesses, the impact of financial and credit mechanisms and its further development in the agricultural sector is researched in this chapter.

The second chapter of the thesis is called: «The current state of the financial and credit mechanism in entrepreneurship in the agrarian sector». Characterization and assessment of financial and credit mechanisms in the formation and development of the entrepreneurial environment in the agrarian sphere is given in this chapter, and also factors affecting the regulation of economic ties between commodity producers in the agrarian business are analyzed.

The third chapter of the thesis is called: «The issues improving the financial and credit mechanism in the development of small and medium-sized enterprises in the agrarian sector». This chapter explores the main directions for the development and improvement of the financial and credit mechanism in enhancing the efficiency of the business environment, state support for entrepreneurial activities, as well as issues related to investments and capital investments in the business sector.

In the conclusion of the thesis, the main conclusions and proposals are formulated, which reflect the key points of the research.

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАУЧНО - ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ
СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

*На правах рукописи*

**ЮСИФОВА ШОВКЕТ АБУЗАР кызы**

# НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ФИНАНСОВО-КРЕДИТНЫХ МЕХАНИЗМОВ В РАЗВИТИИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В АГРАРНОЙ ОТРАСЛИ

**Специальность 5312.01- Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**БАКУ-2017**